N.N.KƏRİMOVA
müəllim
e-mail: kerimova.nishana05@gmail.com

Bakı Slavyan Universiteti
(Bakı şəh., S.Rüstəm küç., 33)

:10.62021/0026-0028.2024.2.038

İNGİLİS DİLİNDƏ LEKSİK İFADƏLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİNƏ DAİR

Xülasə. *Məqalədə ingilis dilində işlənən leksik ifadələr nəzərdən keçirilir. Leksik ifadələrin semantik quruluşunun və zahiri strukturnun, onların müxtəlif dillərdə yeri və rolunun tədqiqi, tərcümə imkanlarının öyrənilməsi, milli kolorit və beynəlmiləl mahiyyətinin səciyyələndirilməsi, onların işlənmə hallarının və funksional sahələrinin təhlili həm nəzəri, həm də praktik cəhətdən aktuallıq kəsb edir. Qeyd edilir ki, leksik ifadələr fikrin tutumunu və əhatəliyini böyüdür, bədii əsərin emosionallığını, üslubi keyfiyyətlərinin zənginləşməsinə xidmət edir. Adresat leksik ifadələri kommunikativ ünsiyyət zamanı kontekstlər leksik ifadələrin qarşılıqlı münasibətini əsas götürür, yəni kontekst leksik ifadələrin semantik çalarlarını dəqiqləşdirir, leksik ifadələr isə isə mətnin. Leksik ifadələr bu və ya digər obrazın və ya fiqurun danışığını fərdiləşdirmək, tipikləşdirmək üçün əsas vasitələrdən birinə çevrilmişdir.*

Açar sözlər: *ingilis dili, leksik ifadələr, milli kolorit, tərcümə imkanları, söz birləşmələri, kontekst*

Hələ orta məktəb dərsliklərindən dilin tarixi, ictimai hadisə olması bizə məlumdur. Bu ictimai hadisənin bir qolunu da leksik ifadələr təşkil edir. Dilin leksik ifadələri də zəruri ehtiyac nəticəsində təkamül prosesi ilə formalaşaraq zənginləşmə prossesi keçib və sistem halına düşmüşdür. Leksik ifadələr hər bir xalqın həyat tərzi, sənəti-peşəsi, mifoloji rəvayətləri, dini inancları, adət-ənənəsi, dünyagörüşü əsasında formalaşır.

Leksik ifadələri iki müstəvidə dilçilər adətən tədqiq edir: diaxronik və sinxronik.

1. Diaxronik müstəvidə dilin leksik ifadələrinin tarixən yaranması və günümüzə qədər leksik-semantik və struktur tərəfləri öyrənilir.

2. Sinxronik müstəvidə dilin leksik ifadələrinin müasir vəziyyətinin leksik-semantik və strukturoloji tərəflərinin təsviri verilir.

Linqvistikada leksik ifadələrə tədqiqatçıların yanaşmalarına görə iki qütbə ayırırlar:

1. Dildə hazır formada mövcud olan söz birləşmələrinin hamısını leksik ifadələr hesab edənlər (sərbəst, sabit söz birləşmələri, klişelər, atalar sözləri, zərbi məsəllər və s.)

2. Dildə hazır formada olan söz birləşmələrinin hamısını deyil, onlardan yalnız nitq və ya dil vahidlərinə ekvivalent olub, elementləri semantik və strukturoloji nəzərdən bölünməyən dil vahidlərini leksik ifadələr adlandıranlardır.

Birincisi qütbə daxil olanlar leksik ifadələrə geniş, ikinci qütbə daxil olanlar isə dar mənada yanaşırlar.

Dildə söz bilrləşmələrinin hamısını leksik ifadələr hesab edən rus dilçilərindən A.A.Bulaxovski sabit leksik ifadələrə hazır formada istifadə olunan sitat materialları kimi baxaraq, kommunikasiya zamanı istifadə olunan sabit söz birləşmələrinin hamsını leksik ifadələrin tədqiqat obyekti hesab edir. Ona görə, leksik ifadələr, adətən, dildə semantik cəhətdən bölünməyən, lakin funksional sitat materialı olaraq möhkəmlənən atalar sözləri, məsəllər, yazıçıların "qanadlı sözlər" biçiminə düşmüş ifadələrdir.

B.N.Qolovinə görə isə, leksik ifadələr adresant tərəfindən hazırlanmır. Onlar dildə hazır formada olur. Nitq iştirakçılarının hamısı onlardan hazır şəkildə dil vahidi olaraqistifadə edir [1, s. 136].

A.İ.Yemifova görə isə, leksik ifadələrin tədqiqat obyektinə, leksik ifadələrin sırasına idarə ştampları, istehsal-texniki ifadələr və.s. də aid edilmişdir.

Yuxarıda qeyd olunan tədqiqatçıların fikirlərini bir az da qüvvətləndirərək, A.A.Reformatskidildəki "spesifik sözləri" də leksik ifadələr sıralarına daxil etmiş və nitq üçün səciyyəvi olan sözləri və söz birləşmələrini "leksik ifadələr" adlandırmışdır.

Qeyd etdiyimiz kimi, tədqiqatçıların bir qismi dildə olan bütün və hər növ sabit söz birləşmələrini deyil, onların müəyyən bir hissəsini leksik ifadələr adlandırır.

Leksik ifadələrin tədqiqatının əsasını qoyan Ferdinant de Sossyur dildəki sabit leksik ifadələri sərbəst söz birləşmələrindən belə fərqləndirərək, onları dildəki hazır nitq parçaları kimi adlandırır [1, s. 148].

XX əsrin əvvəllərində leksik ifadələrin məsələləri ilə ilk dəfə məşğul olan Şarl Balli leksik ifadələri leksikologiyanın müstəqil şöbəsi kimi müəyyənləşdirərək nitqdə iki növ söz birləşmələrinin olduğunu qeyd edərək bu növ ifadələri frazeoloji qrup adlandıraraq onları sinxronik planda şərh etməyə çalışmışdır.

S.İ.Abakumovun 1936-ci ildə "Sözlərin sabit birləşmələri" adlı əsərində leksik ifadələri idiomatika və frazeologiya olaraq iki qrupa ayırmışdır. Tədqiqatçıya görə, semantik bütövlüyü olan, leksik və semantik baxımdan parçalanmayan, sabit söz sırasını mühafizə edən bütün birləşmələr idiomatikaya aiddir. Ona görə, ədəbi sitatlar, ştamp xarakterli birləşmələr frazeologiyaya məxsusdur.

Müasir dövrdə leksik ifadələr tam yeni rakursdan araşdırılımağa başlanılmışdır.

Belə ki, son illərə qədərə dilçilikdə, leksik ifadələr problemi ilə daha çox məşğul olan tədqiqatçılar özləıri bu sahənin tədqiqat obyektini qəti şəkildə konkretləşdirməmişdilər. Lakin son zamanlar leksik ifadələrin tədiqat obyekti, onun mövqeyi artıq müəyyənləşməyə başlamışdır. Bunu A.V.Kuninin, T.Tağıyevin tədqiqatlarında və bir sıra başqa yeni tədqiqatlarda görmək mümkündür [1, s. 123].

M.T.Tağıyev leksik ifadələrin bu şəkildə qeyri-müəyyən başa düşülməsinin səbəbini bu sahədə elmi-nəzəri prinsipə əsaslanan metodoloji bazisin işlənib hazırlanılmamasında və filoloji elmlər sistemində dilçiliklə ədəbiyyatşünaslıq irsinin genetik əlaqəsinin kifayt qədər tədqiq edilməməsində görür [2, s. 37].

Dildə leksik ifadələri növlərə ayırmaq üçün əsəs kriteriyia ifadələrdəki komponentlərin bir-birinə yanaşma və birləşmə dərəcəsidir. Leksik ifadələrin elementlərinin bir-biri ilə münasibəti müxtəlifdir.

Linqvistikada leksik ifadələrin təsnifatı müxtəlif istiqamətlərdə təyin olunur. Frazeologiya nəzəriyyəsinin banisi Şarl Ballinin leksik ifadələr nəzəriyyəsi frazeologiyanın inkişafına böyük təsir göstərmişdir. O, leksik ifadələri dörd qrupa bölür: 1) sərbəst söz birləşmələri, 2) adi birləşmələr, 3) frazeoloji qrup, 4) frazeoloji birləşmələr [1, s. 59].

1. Sərbəst söz birləşmələrin hər bir üzvü ayrılıqda olduğu kimi ifadə daxilində də öz müstəqilliyini saxlayır və bölünə bilir.

2. Adi birləşmələrin tərkibindəki komponentlər qismən müstəqildir. Adi birləşmələrin tərkibində dəyişikliklər etmək olur.

3. Frazeoloji qrup nisbi müstəqilliyini saxlayan leksemlərin vasitəsi ilə yaranır. Frazeoloji qruplarda tərkibinin yenidən qruplaşdırılması mümkündür.

4. Frazeoloji birləşmə elementləri bir-biri ilə sıx əlaqədə olan birləşmələrdir. Bu cür söz birləşmələrinin tərkibindəki leksemlər öz orjinal mənalarını itirərək, tərkibdə vahid bir məna ifadə edir. Frazeoloji birləşmələrin daxilindəki elementlərin dəyişdirilməsi mümkün deyildir.

Ş.Balli leksik ifadələri və söz birləşmələrini sabitlik dərəcəsinə görə də müqayisə etmişdir. O, leksik ifadələri və söz birləşmələrini sxematik olaraq qruplara ayırmış, lakin onların təsnifatını verməmişdir. Sonradan o, leksik ifadə və söz birləşmələrinin yalnız iki qrupunu qeyd etmişdir: 1) sərbəst söz birləşmələri, 2) frazeoloji birləşmələr.

Akademik V.V.Vinoqradov frazeoloji vahidləri "frazeoloji bitişmələr" və "frazeoloji birləşmələr" adı ilə semantik qrupalara bölür. O, frazeoloji birləşmələrdən bəhs edərkən yazır ki, bunların ümumi mənası ilə elementlərinin mənası arasında heç bir münasibət, hətta potensial əlaqə belə yoxdur. Onların tərkib hissələri dildəki bir və ya digər leksemlə eyni səs tərkibinə malik olsa da, bu tip qarşılıqlı münasibət omonimlikdən başqa bir hal deyildir [1, s. 24].

N.M.Şanski isə mülahizəni daha da irəli apararaq sabit söz birləşmələrinin üç deyil dörd tipini müəyyən etmişdir. Tədqiqatçı sabit söz birləşmələrinin frazeoloji bərkimələr, frazeoloji bitişmələr, frazeoloji birləşmələr və frazeoloji ifadələr qruplarını müəyyən etmişdir. Ona görə, sözlərin həqiqi mənası üzərində yaranıb, öz lüğəti semantikasında və qrammatik əlaqəsinə görə möhkəm, eləcə də aydın sabit söz birləşmələri frazeoloji ifadələrdir. Tədqiqatçıya görə, frazeoloji ifadələrin ümumi mənası tərkibinə daxil olan lksemlərin semanikası ilə bağlıdır [1, s. 187].

Məsələn:

Live and learn "beşikdən qəbrə qədər öyrən!".

İngilis dilinin frazeoloji vahidləri aşağıdakı kimi səciyyələndirilmişir:

Frazeoloji bərkitmə.

Tərkibindəki leksemlərin üstəqil mənalarını tamamilə itirməsi nəticəsində yaranmış sabit söz birləşmələri frazeoloji bərkitmələr adlanır. Linqvistikada bu qəbildən olan leksik ifadələri idiomlar da adlandırırlar. Bu leksik ifadələrin əsas əlaməti semantik cəhətdən bütövlüyüdür. Dildə müvafiq səciyyə daşıyan bu leksik ifadələr onun frazeologiyasının əsasını təşkil edir. İngilis dilindəki frzaeoloji bərkitmələrə aşağıdakı leksik ifadələri nümunə göstərmək olar:

Məsələn:

Kick the bucket "ölmək"; send smb. to conventry "bir kəsi baykot etmək", "bir kəslə əlaqəni kəsmək"; at bay "çıxılmaz vəziyyət"; be at somembody`s beck and call "qulluğunda həmişə hazır olmaq"; to be all thumbs "yöndəmsiz", "yaraşıqsız"; to rain cats and dogs "şıravaran yağış yağmaq"; kilkenny cats "qatı düşmənlər".

Frazeoloji bərkimələr onları təşkil edən tərkib hissələrinin idiomatik mənaları əsasında yaranır. Onların bədiilik xarakterləri yalnız tarixi-nöqteyi baxımından açıqlanır.

Məsələn:

"bay" sözünün mənası "tupik" (ş.dəniz quşu), "beck" sözünün mənası isə "qollarını çırpmaq"-dır.

Bu leksemlər arxaizmlərdir və ancaq yuxarıdakı leksik ifadələrin tərkibində işlənir.

Leksik ifadələrin bir növü olan frazeoloji bərkimələrdə həqiqi semantika ilə idiomatik məna arasındakı münasibət itir və idiomatik məna onlar üçün ön plana keçir. İngilis dilində frazeoloji bərkimələrin aşağıdakı xüsusiyyətləri var:

1. İngilis dilində frazeoloji bərkimələrin elementləri sırasına arxaizmlər də daxil ola bilər.
2. Leksik ifadələr sisteminə daxil olan bu birləşmələri sintaktik cəhətdən bölmək mümkün deyildir.
3. Onların elementlərinin yerlərini dəyişdirmək bir çoxhallarda qeyri-mümkündür.
4. Bu vahidlərin tərkibinə yad bir leksem daxil ola bilmir.
5. Frazeoloji bərkimələrin tərkibindəki leksem öz leksik-semantik mənalarını itirərək onların elementlərinə çevrilir və vahid r mənanı ifadə edir [3, s. 31].

Məsələn:

kick the bucket, send smb to Conventry.

İngilis dilində sabit söz birləşmələrinin tərkibindəki leksemlərdən birinin həqiqi leksik mənası az da olsa, nəzərə çarpır. Bu qəbildən olan birləşmələr frazeoloji bitişmələr adlanır:

Məsələn:

To spill the beans – sirr vermək; to burn bridges – körpüləri yandırmaq; out of the frying pan into the fire – yağışdan çıxıb yağmura düşmək.

Frazeoloji bitişmələr bədiilik və idiomatiklik baxımından frazeoloji bərkimələrə oxşayırlar. Frazeoloji bitişmələri anlamaq üçün onun elementlərini idiomatik mənada anlamaq lazımdır.

Məsələn:

make a mountain out of a mole hill -qarışqadan fil düzəltmək

Frazeoloji bitişmələr omonim olub həm həqiqi, həm də idiomatik məna ifadə edə bilərlər.

Məsələn:

It was very tiresome as I had to swim against the current cümləsinin tərcümsi belə olacaq: Axının əksinə üzmək çox yorucu idi.

İşin elmi nəticəsi: bütün yuxarıda deyilənləri nəzərdən keçirərək deyə bilərik ki, dünyada ingilis dilinin öyrənilməsinə əhəmiyyətli yer verilir. Azərbaycanda da bu dilin öyrənilməsinə böyük diqqət yetirilir. İngilis dilinin öyrənilməsi onun leksik ifadələrini bilmədən mümkün deyildir. Hər bir dil bu və ya digər söz birləşməsini və ya leksik ifadələri özünəməxsus formada anlayır. Məhz buna görə də dillər arasındakı diferensiallıq dəqiq öyrənilməlidir. Leksik ifadələrin, söz birləşmələrinin habelə frazeologizmlərin tədris prosesində mənimsənilməsi dinləyicilərə bir sıra üstünlüklər verə bilər.

İşin elmi yeniliyi: məqalədə ingilis dilində işlənən leksik xüsusiyyətlərin mahiyyəti açıqlanır, cümlədə işlənərkən onların leksik-semantik xüsusiyyətlərinin qorunmasının zəruriliyi əsaslandırılır. İngilis dilində sabit söz birləşmələrinin tərkibindəki leksemlərdən istifadə olunarkən onların həqiqi mənasının saxlanması məsələsi geniş şərh olunur.

İşin tətbiqi əhəmiyyəti: bizə elə gəlir ki, təqdim olunan məqalə "İngilis dilində leksik ifadələrin işlənmə xüsusiyyətlərinə dair" mövzusu ilə maraqlanan hər kəs üçün əhəmiyyətli ola bilər. Eləcə də əldə edilmiş nəticələr mətn linqvistikası və metodiki vəsaitlərin hazırlanması zamanı istifadə edilə bilər.

Ədəbiyyat

1. Амосова, Н.Н. Основы английской фразеологии / Н.Н.Амосова, − Л.,1963, − 207 с.
2. Arnold, L. The English word / L.Arnold, −Moscow, −1986, − p.256
3. Babayev, A. Dilçiliyə giriş / A.Babayev, − Bakı, − 1992, − 262 s.
4. Bayramov, H. Azərbaycan dili frazeologiyasının əsasları / H.Bayramov, − Bakı, − 1978, − 175 s.
5. Cəfərov, S. Müasir Azərbaycan dilinin leksikası / S.Cəfərov, − Bakı, − 1970, − 326 s.

N.N.Kerimova

About the Peculiarities of using Lexical Expressions in the English Language

Summary

The article discusses the lexical expressions used in the English language and their significance in various aspects of communication. It explores the semantic and structural aspects of these expressions, as well as their role and place in different languages and the possibilities of translating them. The article also examines the characteristics of national and international flavor, the analysis of their use in different contexts and functional areas. The author notes that lexical expressions enhance the capacity and depth of thought, enrich the emotional and stylistic quality of a piece of writing. The context in which the recipient encounters these expressions is crucial, as it determines the meaning and connotations of the words used. Lexical expressions play a significant role in personalizing and characterizing the speech of a character or figure in a text.

Key words: *English, vocabulary, cultural nuances, translation options, phrases, context*

Н.Н.Керимова

К вопросу об особенностях употребления лексических выражений в английском языке

Резюме

В статье рассматриваются лексические выражения, используемые в английском языке. Изучение семантической структуры и внешнего строения лексических выражений, их места и роли в различных языках, изучение возможностей перевода, характеристика национального

колорита и интернационального характера, анализ обстоятельств и функциональных областей их употребления имеют как теоретическую, так и практическую актуальность. Отмечается, что лексические выражения увеличивают емкость и объемность мысли, служат обогащению эмоциональности и стилистических качеств художественного произведения. Контексты лексических выражений адресата в ходе коммуникативного общения основаны на взаимной связи лексических выражений, то есть контекст определяет смысловые оттенки лексических выражений текста. Лексические выражения стали одним из основных средств персонализации и типизации речи того или иного образа или фигуры.

Ключевые слова: *английский язык, лексические выражения, национальный колорит, возможности перевода, словосочетания, контекст*

Rəyçi: dos. F.F.Kərimova

Redaksiyaya daxil olub: 15.05.2024